

# "Məlikməmməd" Tbilisidə mükafat aldı

**Azərbaycan Dövlət Kukla Teatrının kollektivi Gürcüstan Respublikasında səfərdə olub. Teatrın direktoru, Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadənin rəhbərlik etdiyi qrup Tbilisidə keçirilən Uşaq və Gənclər Beynəlxalq Teatr Festivalında iştirak edib.**

Kuklaçılarımız teatr bayramında "Məlikməmməd" (Azərbaycan xalq nağılı əsasında) tamaşasını nümayiş etdirərək münsiflər heyətinin rəğbətini qazanıblar. Onlar 10-a yaxın ölkədən kukla teatrı kollektivinin təmsil olunduğu festivalda "Ən yaxşı səhnə həlli" və "Ən gözəl kukla" nominasiyalarında mükafata layiq görülüblər.

Məlumat üçün bildirək ki, bu səfər Azərbaycan Dövlət Kukla Teatrı ilə Gürcüstan Dövlət Kukla Teatrları Birliyi arasında imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində reallaşıb. 2022-ci ildə imzalanmış sənədə əsasən, iki ölkənin nəinki Kukla teatrı, ümumən teatrları müxtəlif istiqamətlərdə davamlı əməkdaşlıq edəcək və müştərək layihələrə qatılacaqlar. Memorandumda tamaşaların hazırlanması, təcrübə mübadiləsinin tətbiqi, ustad dərslərinin təşkili, eləcə də spesifik istiqamətlərdə kurs və qısamüddətli təlimlərin keçirilməsi də nəzərdə tutulub. Əsas məqsəd tərəflərin qarşılıqlı əməkdaşlığı yolu ilə müxtəlif yaş qrupları üzrə kukla ifaçılıq sənətini daha da təkmilləşdirmək və dünya miqyasında sistemli təbliğinə nail olmaqdır.

Teatr qrupu "Məlikməmməd" tamaşasını həm də azərbaycanlıların kompakt yaşadıqları Marneulidə də nümayiş etdirib.

***Q.MƏMMƏDOV***

Azərbaycan.- 2024.- 12 iyun, № 123.- S.11.